*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Poetika.izm, 2024, № 2* *ISSN: 2663-2926*
*Səhifə: 20-28* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-2926.2024.2.20*

# Kemel Tokayev qazax ədəbiyyatında detektiv janrının banisi kimi

**Nizami Məmmədov Tağısoy**
Filologiya elmləri doktoru, professor
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: nizami.mamedov@mail.ru

**Annotasiya.** Bu materialda biz qazax ədəbiyyatında detektiv janrının banisi Kemel Tokayevin uşaqlığında həyatın bütün məşəqqətlərini görmüş, valideynlərini erkən itirmiş, böyük qardaşı Böyük Vətən müharibəsində həlak olmuş, özü də həmin müharibənin iştirakçısı olub və orada yaralanmış istedadlı yazıçının yaradıcılıq fəaliyyətini təhlil etmişik. K.Tokayev Qazax Dövlət Universitetində təhsilini başa vurduqdan sonra jurnalist və redaktor kimi fəaliyyət göstərmişdir. Məhz qeyd etdiyimiz dövrdən o, nəsr yaradıcılığına başlamış, sonra bir-birinin ardınca “Ulduzlu yol”, “Sirli iz”, “Damğalı qızıl”, “Sonuncu yol”, “Əsgər müharibəyə getdi”, “Yüvasız quş”, “Sui-qəsd”, “Gecə açılan atəş” və s. kimi orijinal əsərlər yaratmışdır. Qeyd edək ki, azərbaycanlı mütərcim Nəriman Əbdürrəhmanlının sayəsində Kemel Tokayevin povestlərindən bir neçəsi Azərbaycan oxucu ictimaiyyəinin malına çevrilmişdir.
Təqdim olunmuş materialda biz Kemel Tokayevin yüksək maraq kəsb edən əsərlərinin bir sıra tərəflərinə toxunur, onun bəzi əsərlərin daha uğurlu alınması üçün rekonstruksiyalar aparıb, həmin örnəklərə özünəməxsus forma və yanaşmalar verdiyini ortaya qoymağa səy göstərmişik. Təhlil zamanı biz həm də yazıçının bədii mətnlərində süjet-kompozisiya quruluşu, personajların portret xarakteristikası və üslub dominantlarına diqqət yetirməyi gərəkli hesab etmişik. Bunu da qeyd edək ki, Azərbaycan ədəbiyyatşünaslığında adını çəkdiyimiz qazax yazıçısının bədii detektiv nümunələri ilk dəfə tərəfimizdən incələnməyə cəlb edilmişdir.
**Açar sözlər:** Kemel Tokayev, yaradıcılıq fəaliyyəti, detektiv janrı, üslub dominantası, portret xarakteristikası, avtobioqrafizm

**Məqalə tarixçəsi:** göndərilib – 15.11.2024; qəbul edilib – 29.11.2024

# Kemel Tokayev as a founder of the detective genre in the Kazakh literature

**Nizami Mammadov Taghisoy**
Doctor of Philological Sciences, Professor
Institute of Literature named after Nizami Ganjavi of ANAS
E-mail: nizami.mamedov@mail.ru

**Abstract.** In this material, it is analyzed the creative work of Kemel Tokayev, the founder of the detective genre in Kazakh literature. A talented writer, Tokayev experienced the hardships of life from an early age, having lost his parents and older brother during the Great Patriotic War. He also personally participated in and was wounded in this war. After graduating from Kazakh State University, Tokayev worked as a journalist and editor.

During this period, he turned to prose, and in subsequent years, he produced a series of original works, including "Star Trek", "The Mysterious Trail", "Gold with Tamga", "The Last Journey", "The Soldier Went to War", "Bird Without a Nest", "Assassination", "Night Shot", and many others. Notably, thanks to the creative translations by Nariman Abdurrahmanly, some of Kemel Tokayev's stories became accessible to Azerbaijani readers and were highly appreciated.
In this study, it is explored key aspects of Kemel Tokayev's writing, particularly his ability to reconstruct individual moments within his works, giving them a unique form and interpretation. Additionally, our analysis focuses on the plot and compositional structure, character portrayals, and the stylistic elements that dominate his literary texts. For the first time in Azerbaijani literary criticism, we attempt a detailed analysis of detective fiction by this Kazakh writer.
**Keywords**: Kemel Tokayev, creative activity, detective genre, stylistic dominant, portrait characteristics, autobiographism

**Article history:** received – 16.11.2024; accepted − 29.11.2024

## Giriş / *Introduction*

XX əsrdə qazax xalqı milli bədii düşüncəyə Saken Seyfullin, İlyas Cansuqurov, Muxtar Auezov, Sabit Mukanov, Beimbet Maylin, Qali Ormanov, Taken Alimkulov, Qabit Musrepov, İlyas Yesenberlin, Əbdicəmil Nurpeisov, Anuar Alimcanov Oralxan Bukeyev və başqa bu kimi parlaq və qeyri-adi yaradıcılıq dəst-xətinə malik olan şəxsiyyətlər bəxş etmişdir. Onlardan hər biri bədii-fəlsəfi fikrin və milli-estetik təfəkkürün inkişafına mühüm töhfələr vermişlər. Eyni zamanda, bu silsilədə dominant yeri Uca Tanrı Məhəmməd peyğəmbərə və ya başqa bir istedadlı qazax yazıçısı Anuar Əlimcanova bəxş etdiyi 63 il qədər Kemel Tokayulı Tokayevə də (1923-1986) ömür vermişdir. Kemel Tokayev uzun ömür yaşamamasına baxmayaraq, Allahın ona verdiyi ömür fürsəti ərzində çox işlər görmüşdür.

## Əsas hissə / *Main part*

K.Tokayev doğma mədəniyyət tarixinə bir neçə nəşrin redaktoru və orijinal yazıçı kimi daxil olmuşdur. Bildiyimiz kimi, türklər, xüsusən də qıpçaq türkləri öz əcdadlarının etnogenezinə, tarixinə daim dərin hörmət bəsləmişlər. Bu baxımdan Kemel Tokayevin də Böyük Cuzun Jalayır tayfasının Kuşik soyundan gəldiyini vurğulamaq lazımdır.

XX əsrin 20-ci illərində yaranmış dözülməz vəziyyət və həyat tərzi ilə əlaqədar Kemel Tokayevin ailəsi vətənini tərk edərək bir neçə il Qırğızıstanın Frunze şəhərində yaşamışdır.

Tokayevlər ailəsi üçün uşaqlıq həyatı heç də onların üzünə gülməmişdi. Gündəlik çörək dalınca Qırğızıstana gələn valideynlər orada ailələrini dolandırmaq imkanı tapa bilmədiyindən övladlarını götürüb geri dönməyə məcbur oldular. Orada olarkən o qədər yaxşı şəraiti olmayan otaqda bacısının ayağı sürüşərək sobanın üstünə yıxılır. Bu zaman iflic vəziyyətdə olan anası isə yanmış qızına dəhşətlə baxsa da, heç bir kömək edə bilmir. Evə qayıdan ər qızının və ölmüş arvadının yanmış cəsədini görəndə dəhşətə gələrək hönkür-hönkür ağlayır. Bundan sonra Tokayevin atasının taleyi ilə bağlı heç nə məlum deyildir.

Kemellə böyük qardaşı Qasım isə valideynsiz uşaqlar üçün olan internat məktəbinə göndərilir... Kemellə Qasımın acı taleyi ilə bağlı daha çox danışmaq olar. Tokayevlərin Frunzedə yaşadığı dövrə aid materiallarla tanış olduqda qazax xalqı üçün sözün əsl mənasında onları məhv edən aclıqdan qurtulmağın nə qədər çətin olduğunu görmək mümkündür.

Qazaxıstan Prezidenti Qasım Comərd Tokayev "Atam haqqında söz" kitabında aşağıdakıları yazır: "Ailə məclisində Frunzeyə getmək və bu ağır şəraitdə aclıqdan necə xilas olmaq qərarı qəbul edilir. Ora aparan yol isə son dərəcə uzun və çətin idi" [2].

Ümumiyyətlə, həyat Tokayevlər ailəsinin üzünə gülmür. Müharibə başlayanda Qasım da cəbhəyə çağırılanlar arasında idi. Və artıq 1942-ci ildə onun ölümü ilə bağlı tezliklə qara kağız gəlir. Belə faciəvi xəbərlər əslində Kemelin həyata və gələcəyə olan inamını ciddi şəkildə qırmışdı. Tezliklə onu da orduya çağırırlar.

Frunzedəki Piyadalar Məktəbində çavuş kurslarını bitirdikdən sonra Kemel Tokayev Stalinqrad cəbhəsindəki hərbi hissəyə göndərilir. Üç aylıq döyüşlərdə iştirak etdikdən sonra yaralanır, lakin hərbi hospitalda qalmaq istəməyib, əvvəl Birinci Ukrayna, sonra İkinci Belarus cəbhəsinin 7-ci Qvardiya Tank Alayının tərkibində vuruşur. Burada o, əsl möcüzələr yaradır, qəhrəmanlıqlar göstərir. Onun iki "İgidliyə görə" medalı və "Vətən Müharibəsi" ordeni ilə təltif edilməsi də məhz bunun əyani sübutudur. Müharibə zamanı o, ağır yaralanır və amputasiya olunası ayağını yalnız möcüzə nəticəsində xilas etmək mümkün olur.

Belə ağır, ağlasığmaz sınaqlardan sonra vətənə yaralı qayıdan, sığınacağı, təhsili, iş yeri olmayan Kemel nə edəcəyini bilmir. Yolunda yaranan dəf olunmaz maneələrə baxmayaraq, universitetə daxil olub, oranı müvəffəqiyyətlə başa vuraraq jurnalist kimi fəaliyyət göstərir. Eyni zamanda, ədəbi nümunələrin yaradılması sahəsində də öz bacarığını sınayır.

1945-ci ildə Tokayev Kirov adına Qazax Dövlət Universitetinin Filologiya fakültəsinin birinci kursuna daxil olur. O vaxtlar o, hələ də əlində çəliklə hərəkət edirdi. 3 il keçmişdi ki, o, sonra özünü "Qazaxıstan pioneri" adlı uşaq qəzetində jurnalist kimi sınayır və iki ildən sonra həmin nəşrin baş redaktoru olur. Məhz həmin ərəfədə yazıçılıq karyerası haqqında düşünən Kemel ilk kitabını "Ulduz yolu" adlandıraraq qazax pionerlərinin fəaliyyətinə və həyatına həsr edir.

Ədibin həyat və yaradıcılığı ilə bağlı əldə olan bioqrafik materiallardan aydın olur ki, Kemel Tokayevin bütün fəaliyyəti həm ibrətamiz, həm də son dərəcə qeyri-adidir. Məhz buna görə də bizi onun özü və yaradıcılığı haqqında daha ətraflı və təfərrüatları ilə yazmağa məcbur edir: bir tərəfdən, onun yaradıcılıq üslubunun orijinallığı, digər tərəfdən isə yaradıcılığında istifadə etdiyi orijinal, yeni mövzular və janrlarla tanışlıq, yaradıcılıq fəaliyyəti bizi müəllifin əsərlərinə xüsusi mövqedən yanaşmağa sövq edir, eyni zamanda bura belə bir faktı da əlavə etsək ki, Kemel Tokayev məşhur siyasi və dövlət xadimi, Qazaxıstan Respublikasının Prezidenti Qasım Comərd Tokayevin atasıdır və diplomatik sahədə zəngin təcrübəsi var, o zaman bu sahədə yazıçının yaradıcılığına müraciətimiz də heç bir etiraz doğurmamalıdır.

Bu yaxınlarda Bakıda Azərbaycan dilində çapdan çıxmış "Gecə açılan atəş" hekayələr toplusunun ön sözündə Kemel Tokayevin həyatının zənginliyindən bəhs olunur. Azərbaycan Yazıçılar Birliyinin birinci katibi, xalq yazıçısı Çingiz Abdullayevin Kemel Tokayevə həsr olunmuş "Müqəddəs vəzifə" adlı yığcam məqaləsində oxucular eksklüziv olaraq Kemel Tokayevin taleyi ilə tanış olur. Bu maraqlı yazıda yazıçının taleyinin ibrətamizliyi xüsusi ilə qeyd olunur. Onun fikrincə, min doqquz iyirmi iki, üç, dördüncü illərdə doğulmuş insanlar "qəhrəman nəsil" adlandırılmalıdırlar, çünki dəhşətli və üzə gülməyən statistikaya görə onların çoxu İkinci Dünya Müharibəsində döyüş meydanlarında həlak olub, yalnız onlardan bir neçə faizi sağ-salamat qalmışdı [1].

Qazaxıstan Respublikasının Prezidenti, Kemel Tokayevin oğlu Qasım Comərd Tokayev "Atam haqqında söz" kitabında yazır: "Mənim atam kənd yerindən olduğu üçün, demək olar ki, rus dilini bilmirdi. Müharibənin çətin şəraitinə təsadüf edən dövr onun üçün ilk həyat universiteti oldu, burada o, rus dilində cəsarətlə və özünün ünsiyyətcilliyi sayəsində dərslər aldı. Bu gün də onun şəxsi dəftərləri qorunub saxlanılır, burada özünün gözəl dəst-xəti ilə qrammatik nümunələr yer almışdır. O, həm də görkəmli rus yazıçılarının bədii əsərlərinin bütöv parçalarını əzbərləyərək qeydlər aparırdı" [2].

Kemel Tokayev Qazaxıstan Dövlət Universitetini bitirdikdən sonra "Lenin gəncliyi", "Qazaxıstan pioneri" (rus və qazax nəşrləri ilə bağlı məsul işçi), "Sosialist Qazaxıstanı" qəzetlərinin redaksiyalarında məsul vəzifələrdə çalışmışdı. Bundan sonra o, uzun müddət (1960-1977) Qazaxıstan SSR Ali Sovetinin "Vedomosti" qəzetinin baş redaktoru kimi fəaliyyət göstərmişdir.

Kemel Tokayev özünün son dərəcə ağır və gərgin yaradıcılıq fəaliyyəti dövründə sovet təhlükəsizlik sistemi işçiləri haqqında qazax və rus dillərində onlarla kitab, həmçinin "Qırmızı komissar", "Cinayətkar kimdir?", "Sehrli sirlər" və s. kimi kitablar qələmə almışdır. Sadalananlardan əlavə, o, həm də "Ulduz yolu", "Qış qaranquşu" və başqa bu kimi maraqlı əsərlərin müəllifidir (bu hekayələr eyni zamanda nəşriyyatlarda bir neçə dəfə təkrar nəşr edilmişdir - 1958, 1972, 1975); "Gecə açılan atəş" (bu hekayə də "Qazaxıstan" nəşriyyatı tərəfindən yenidən nəşr olunmuşdur, 1976); "Sirli iz", "Damğalı qızıl", "Sonuncu zərbə", "Əsgər müharibəyə getdi", "Yuvasız quş" və s. Burada həm də qeyd edək ki, Kemel Tokayevin orijinal yaradıcılıq irsindən "Damğalı qızıl", "Gecə açılan atəş" və "Sirli iz" hekayələri 2022-ci ildə Azərbaycan dilinə tərcümə edilmişdir. Bütün bu nümunələri Azərbaycan dilinə istedadlı nasir və mütərcim Nəriman Əbdülrəhamanlı çevirmişdir.

Digər bir məqamı da qeyd etmək maraqlıdır. Kemel Tokayev 1943-cü ilin noyabrında Kiyev uğrunda gedən döyüşlərdən bəhs edən "Xüsusi tapşırıq" adlı avtobioqrafik hekayəsini qazax dilində qələmə almışdır. Bu hekayəni o vaxt Sovet İttifaqı Qəhrəmanı, əfsanəvi döyüşçü Baurcan Momışulı rus dilinə tərcümə etmişdir. 1941-ci ilin payızında Moskva uğrunda gedən döyüşlərdə Baurcan Momışulı Böyük Vətən Müharibəsində batalyona komandanlıq edirdi.

Burada bir maraqlı məsələni də xatırlatmaq yerinə düşər. Alman işğalçıları ilə döyüşlərdə sağ əlini itirmiş mərhum professor, Böyük Vətən Müharibəsi iştirakçısı və veteranı Aleksandr Alekseyeviç Svariçevski M.F.Axundov adına Azərbaycan Pedaqoji Rus Dili və Ədəbiyyatı İnstitutunda (indiki Bakı Slavyan Universiteti) Rus sovet ədəbiyyatı fənnindən bizə mühazirə oxuyarkən o, Aleksandr Bekin "Volokolamsk şossesi" povestinin baş qəhrəmanı Baurjan Momışulının obrazı üzərində xüsusilə dayanırdı. Bununla demək istəyirik ki, biz hələ tələbəlik illərindən qardaş qazax xalqının qəhrəman oğlu Baurcan Momışulının adına və şəxsiyyətinə böyük hörmət və məhəbbət bəsləyirdik.

Qeyd edək ki, Baurcan Momışulı cəngavərcəsinə döyüşməyi bacaran sərkərdə olması ilə yanaşı, həm də istedadlı yazıçı kimi fəaliyyət göstərmişdir. Eyni zamanda, qazax xalqının bu əfsanəvi oğlunun şücaətlərindən bəhs edən bir çox kitablar da onun həyatına və qəhrəmanlığına həsr olunmuşdur. Bundan sonra, Baurcanın qəhrəmanlığının isti izi ilə Aleksandr Bekin "Volokolamsk şossesi" povesti qələmə alınmış və bu populyar əsər 1944-cü ildə "Panfilovçular ön cəbhədə" adı ilə Moskvadakı "Znamya" jurnalında dərc edilmiş, daha sonralar isə bizim çağlarda – 2018-ci ildə yenidən işıq üzü görmüşdür.

Kemel Tokayev geniş oxucu kütləsi arasında detektiv janrının ustad yazıçısı kimi tanınmaqdadır. Onun nəsrdəki ilk təcrübələri, xüsusən də kəskin, həyəcanlı süjetlər qurub, aktual mövzuları çevrələyən "Qığılcım", "Sirli iz", "Onlar harada məskunlaşdılar" və s. kimi roman və povestləri oxucuların böyük rəğbətini qazanmışdır. Təsadüfi deyildir ki, o, görkəmli yazıçı kimi qazax ədəbiyyatında detektiv janrının əsasını qoymuşdur [2].

Bundan bir müddət sonra K.Tokayev daxili işlər orqanları əməkdaşlarının gərgin əməyinə həsr olunmuş digər maraqlı bir əsər üzərində işləyir. Bu əsərin adı "Daşqın" ("Taskın") idi. K.Tokayevin oğlu, Qazaxıstanın indiki prezidenti Q.C.Tokayevin xatırlatdığı kimi, bu kitab arayaərsəyə gəlməzdən əvvəl qazax dilində hər hansı belə bir bədii əsərlərin olmadığı qeyd olunur".

Məhz bu kitab Kemel Tokayevə detektiv janrının banisi kimi doğma ədəbiyyatda yer tutmağa imkan verir. Yazıçı təkcə qazaxıstanlı oxucular arasında tanınmağı məqbul hesab etmirdi. O, kitablarının rus dilinə tərcüməsi problemindən da narahat idi. Eyni zamanda bunun da öz çətinlikləri var idi. Çünki bu işə Moskvadan tərcüməçilər cəlb etməyə onun heç bir maddi imkanı da yox idi. Buna görə də o, yerli həvəskar tərcüməçilərin xidmətindən istifadə etməyi qərara almışdır.

Burada onu da əlavə edək ki, Kemel Tokayev təkcə qazax milli ədəbiyyatında deyil, digər türk xalqlarının ədəbiyyatlarında da detektiv janrının banisi kimi qəbul edilə bilər. O, yuxarıda qeyd etdiyimiz maraqlı əsərlərlə yanaşı, həm də döyüş səhnələri ilə zəngin olan roman janrında da əsərlər yaratmışdır.

K.Tokayevin bir sıra əsərlərində ("Əsgər döyüşə getdi", "Xüsusi tapşırıq" və s.) qəhrəmanlıq, Vətən qarşısında borc, sədaqət, mərdlik, partizanlıq mövzularına geniş yer ayrılmışdır. Oxucunun nəzərləri qarşısında təhkiyəçi müəllifin müharibə və müharibədən sonrakı hərbi baxımdan əhəmiyyətli yerlərə - Borispol, Darnitsa, Radomışl, Kiyev, Xarkov..., Şevçenko və s. kimi şəhərlərə səfərlər etmiş, köhnə döyüş yerləri ilə bağlı məqamları yada salmış, çoxlu təəssüratlar əldə etmişdir...

Kemel Tokayevin əsərlərini təkrar-təkrar oxuduqca biz XIX əsrin ikinci yarısı rus klassiki İvan Sergeyeviç Turgenevin öz gündəliyində yazdığı "Yazıçı məxfi olaraq psixoloq olmalıdır" fikri ilə razılaşmalı oluruq. Yazıçı üçün çox şey önəmlidir: onun işləmək bacarığı, yaradıcı ab-hava yaratmaq, dilə, adət-ənənələrə, tarixə münasibəti... və s. son dərəcə mükəmməl olmalıdır ... [3]

"Xüsusi tapşırıq" (1962) povestində K.Tokayev məşhur Ukrayna partizanı və görkəmli dövlət xadimi Sidor Kovpakın obrazını xüsusilə özünəməxsus şəkildə təsirli yaratmışdır. Onun qəhrəmanı insanlara güclü inamı ilə seçilirdi. O, böyük həyat təcrübəsi olan insan kimi daim ürəkdən gələn söhbətə meylli idi. Əsər özünün avtobioqrafizmi ilə diqqəti cəlb edir. Bu povestin məzmunu 1943-cü ilin noyabrında Kiyev uğrunda gedən döyüşlərin dəhşətli mənzərələrini canlı şəkildə göz önündə yaratmaqdadır.

K.Tokayevin "Sui-qəsd", "Gecə açılan atəş", "Yuvasız quş" kimi hüquq-mühafizə orqanları işçilərinə həsr olunmuş povestləri də son dərəcə maraqlıdır.

Müasir tədqiqatçılar nədənsə ideoloji rituallıqdan uzaqlaşırlar. Eyni zamanda, bunu da dərk etməyə ehtiyac vardır ki, detektiv janrının, bədii ədəbiyyat janrının sirlərini açmaq üçün, yuxarıda qeyd etdiyimiz kimi, keçmişin yenidən rekonstruksiyasına ehtiyac vardır.

Macəra tipli "Sonuncu zərbə" romanında (qeyd edək ki, bu romanın nüsxələri hazırda ABŞ Konqresi və İllinoys Universitetinin kitabxanalarının kolleksiyaları sırasındadır) hadisələr real regionlarda cərəyan edir. Burada intellektual sirr və həyəcanverici süjet nöqtələrinin mövcudluğu oxucunu təlaş içində saxlayır. Əsərdə süjet artan xətt istiqamətində və ardıcıl inkişaf etməkdədir. Romanı rus dilinə Rostislav Petrov tərcümə etmişdir. Əsər müəllifi ilə mütərcim arasında uğurlu bir anlaşma görünməkdədir. Qazaxıstanda sovetlər dövründə mövcud olan ədəbi-bədii jurnal kimi yaxşı tanınan "Prostor"un baş redaktoru müəlliflə uğurlu birgə yaradıcılıq və əməkdaşlıq şəraitində işləməklə, əsəri başa çatdırıb, 1984-cü ildə jurnalın üç nömrəsində ardıcıl təqdim etmişdir.

Romanda çoxlu sayda real tarixi şəxsiyyətlər var, lakin eyni zamanda əsər romantikadan da xali deyildir. Burada Vernı (Almatı) şəhərinin vilayət inqilab komitəsinin rəhbəri Oraz Candosov, Üçüncü Türküstan Diviziyasının Hərbi Şurasının sədri Dmitri Furmanov, vilayət hərbi komissarı Bay Şaqabutdinovun və başqalarının obrazları ustalıqla canlandırılmışdır. 1920-ci ildə Ağ Qvardiyaçılar üsyan edərək Vernıdakı qalanı ələ keçirdikləri ərəfə əsərdə teleqramlar, reportajlar, operativ məlumatlar və s. şəklində K.Tokayevin "Sonuncu zərbə" romanının kompozisiya və struktur quruluşuna üzvi şəkildə oturdulmuşdur. Romanda yer almış personajların dialoqları dinamikdir. Burada Mahmudun daxili monoloqu qeyri-xüsusi nitqdən xüsusi nitqə çevrilməklə mütəşəkkil dəstənin üzvü olan Uskovskinin psixoloji portreti ustalıqla yaradılmışdır: "Sən bicin birisən, hisslərini gizlətməyi bacarır... ehtiyatlısan" [4, s. 141].

Kemel Tokayevin bədii mətninin üslub dominantası onun süjet və kompozisiya quruluşunun orijinallığı, portret xarakteristikasının uğurla yaradılmasıdır. Romandakı hadisələr, doğma təbiət lövhələrinin qabarıq şəkildə təqdim olunduğu mənzərələr və s. görümlü eskizlər fonunda baş verir. Bundan başqa, "Sonuncu zərbə" romanının poetikası zəngin folklor irsinin yaradıcı inkişafını bariz şəkildə əks etdirməkdədir.

Kemel Tokayevin anadan olmasının 100 illiyi münasibətilə 2023-cü il oktyabrın 3-də Almatıda "Qazax detektiv janrının darabozı" mövzusunda keçirilən elmi-praktik konfransda Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Rusiyanın yaradıcı ziyalılarının nümayəndələri iştirak etmişdilər.

Qazaxıstan Respublikasının Mədəniyyət və İnformasiya naziri Aida Balayevanın oxuduğu Qazaxıstan Prezidenti Qasım Comərd Tokayevin konfrans iştirakçılarına göndərdiyi təbrik məktubunda deyilir: "Kemel Tokayevin əsərləri oxucunu müqavimət göstərməyə, xeyirxahlığı öyməyə sövq edir. Eyni zamanda dürüstlük, xeyirxahlıq, mərhəmət kimi əxlaqi dəyərləri tərənnüm edir".

Tokayevin əsərləri və macəra janrında qələmə aldığı povestləri qazax nəsrinə yeni ruh gətirməklə dünyanın bir çox dillərinə tərcümə edilmişdir. O, təkcə qazax ədəbiyyatında deyil, həm də Orta Asiya ədəbiyyatının inkişafında detektiv janrının formalaşmasında xüsusi xidmət göstərmiş əvəzsiz yaradıcılıq imkanları ilə seçilən dəyərli yaradıcı şəxsiyyətlərdəndir.

Kemel Tokayevin yaradıcılığını tədqiq edən mütəxəssislər qeyd edirlər ki, yazıçının yaratdığı yüksək əyarlı nümunələrdə milli kod və milli kimlik dünya obrazı səviyyəsində qorunub saxlanılır, burada müəllif özünün olduğu kimi, həm də onun yaratdığı hər bir personajın da öz səsi var. Avtobioqrafizm elementləri bu və ya digər dərəcədə müəllifin bir çox bədii əsərlərində öz əksini tapmışdır. Tokayevin "Damğalı qızıl", "Gecə açılan atəş", "Sirli iz", "Bu Sarbağanda olmuşdur", "Sonuncu zərbə" və s. əsərlərinin hamısı maraqlıdır. Məsələn, "Bu Sarbağanda olmuşdur" povestində uşaq evindəki tərbiyə məsələlərinə və motivinə diqqət yetirilir ki, bu da povestə müəyyən avtobioqrafiklik gətirir. Baş qəhrəmanın atası Rəhim və qardaşının uşaq evində tərbiyə alması əsərdə təsvir olunan hadisələri Kemel Tokayevin özünün həyatına adekvat olaraq yaxınlaşdırır. Bundan başqa, Kemel Tokayevin "Sonuncu zərbə" romanında hadisələrin gərgin dinamikası ilə qarşılaşırıq. Bütün bunlar əsərin oxunuşunu maraqlı edir. Doğma ölkənin keçmişi ilə bağlı oxucunu düşünməyə sövq edir. Romanda təhkiyə həm də kinematoqrafik xarakter daşıyır. Süjet əyləncəlidir, əsas personajların, şəxsiyyətlərin və təsadüfi şəxslərin obrazları parlaq və yaddaqalandır. Bütün bunlarla əlaqədar M.O.Auezov adına Ədəbiyyat və İncəsənət İnstitutu Beynəlxalq əlaqələr və dünya ədəbiyyatı şöbəsinin müdiri Svetlana Ananyeva Almatıda keçirilən konfransda K.Tokayevin yaradıcılığından mahiyyətincə bəhs etmişdir. Eyni zamanda o, yerli kino sənayesinin qazax ədəbiyyatının detektiv janrının ən yaxşı əsərlərinə diqqət yetirməyə borclu olduğu fikrini də xüsusi olaraq vurğulamışdır. S.Ananyevanın müşahidəsinə görə, K.Tokayevin ilk dəfə "Sovet detektivi antologiyası"na daxil edilmiş "Sirli iz" hərbi detektivi Böyük Vətən müharibəsində iştirak etmiş yazıçıları Boris Vasiliev, Yuri Bondarev, Daniil Qraninin ən yaxşı əsərləri ilə bir sırada dayanır. K.Tokayevin özü də "Gecə açılan atəş" hekayəsinin qəhrəmanlarının portret xarakteristikasına və obrazların ayrı-ayrı detallarına dərindən nəzərdə saldığı da qeyd olunurdu.

S.Ananyevanın dolğun məzmunlu çıxışında K.Tokayevin yaradıcılığının digər tərəflərinə də toxunulmuşdur. O, yazıçının böyük tərbiyəvi əhəmiyyətə malik olan əsərlərinin dəyərini də xüsusi ilə qeyd edirdi. Tokayev özü də ailə haqqında aşağıdakıları dilə gətirmişdi: "İnsanın taleyi fərdi olduğu kimi, hər bir ailənin də taleyi digərlərindən fərqlidir". Bunun sirrini açmaq üçün bədii ədəbiyyatın detektiv janrında olan əsərlər keçmişin və təsvir olunan hadisələrin yenidən qurulmasını ehtiva edir. Macəra romanından detektiv intriqa tərcümeyi-halı, elmi fantastika və tarixi nəsr janrına keçir. Bu gün müasir dünya ədəbi prosesinin tendensiyaları da belədir.

2023-cü il oktyabrın ayının əvvəlində böyük yazıçının 100 illik yubileyinə həsr olunmuş adını çəkdiyimiz elmi-praktik konfransda K.Tokayevin əsərlərinin bədii-tərbiyəvi əhəmiyyəti tədbirin digər iştirakçıları tərəfindən də yüksək qiymətləndirilmişdir. Məsələn, TÜRKSOY-un baş katibi Sultan Rayev Kemel Tokayevin türk xalqları ədəbiyyatında rolunu xüsusi olaraq qeyd etmişdir. Qırğızıstan Yazıçılar Birliyinin sədri Nuran Kalıbenov isə Qırğızıstanda Kemel Tokayev muzeyinin açılmasından bəhs etmişdir. Özbəkistan Yazıçılar Birliyinin üzvü Minxojiddin Xojimatov isə

Qazaxıstan Yazıçılar Birliyinə Kemel Tokayevin özbək dilinə tərcümə olunmuş kitabını hədiyyə etmişdir.

Çıxış edənlər yazıçının yaradıcılığının bir çox məqamlarından bəhs etmişlər. Məsələn, K.Tokayevin yaradıcılığının digər xüsusiyyətlərindən danışan rus yazıçısı, kriminalist Dmitri Şestakov qeyd etmişdir ki, Tokayevin qəhrəmanları cəsur və bəsirətli insanlar, ən cəsarətli peşələrdən birinin – hüquq-mühafizə orqanlarının və dövlət təhlükəsizliyi işçilərinin nümayəndələridir. O, çıxış edərək eyni zamanda qeyd etmişdir ki, bu gün detektiv janrına yeni rakursdan baxılır. Və bu istiqamətdə o, qazax həmkarları ilə birgə çalışır.

Son onilliklərdə Kemel Tokayevin istedadlı nasir kimi bir sıra roman və hekayələri nəşr edilmişdir. Onun əsərlərinin birinci cildinə "Əsgər döyüşə getdi" romanı və "Gecə açılan atəş" povesti daxildir. Kemel Tokayevin ikinci cildində povestləri və hekayələri yer almışdır. Burada müəllifin yaradıcılığını populyarlaşdıran məşhur macəra povestləri və hekayələri vardır. Üçüncü cilddə ilk dəfə nəşr olunan və olduqca məşhur olan "Sonuncu zərbə" romanı təqdim olunmuşdur. Dördüncü cildə "Yuvasız quş" və "Sui-qəsd" povestləri daxildir. Beşinci cilddə "Dağlarda əks-səda" və "Bir çağdaşın kəşfləri" povestləri təqdim olunmuşdur. Demək olar ki, K.Tokayevin bütün əsərləri orijinallıqla nəfəs aldığından, burada yazıçı ayrı-ayrı insanların taleyini, onların həyat yolunu ustalıqla təsvir obyektinə çevirməyə müvəffəq olmuşdur.

Analitik məqalə müəllifi M.N.Şakiyev haqlı olaraq bunları qeyd edir: "Heç kimə sirr deyil ki, bu yazıçının yaradıcılığını tədqiq edərkən görürük ki, Kemel Tokayev çoxlarının fərqinə varmadığı, diqqət yetirmədiyi xarakterlərin xüsusiyyətlərini üzə çıxarır. Eyni zamanda dərindən nəzər saldıqda görürük ki, onun əsərləri yüksək effekt yaratma imkanlarına malikdir. Kemel Tokayev tanınmış əsgər və şanlı yazıçıdır. Onun mənəvi xəzinəmizə böyük töhfəsi də son dərəcə nəzərəçarpandır. Yazıçının mənəvi həyat yolu, zəhməti, insani keyfiyyətləri örnək olmağa layiqdir".

Son illər Azərbaycan oxucusu da bu orijinal qazax nasirinin maraqlı əsərləri ilə yaxından tanış olmaq imkanı əldə edə bilmişdir. Belə ki, K.Tokayevin "Gecə açılan atəş" kitabı Bakıda nəşr olunmaqla milli oxuculara təqdim olunmuşdur. Bu kitab Qazaxıstan Respublikasının Prezidenti K.Tokayevin "Atam haqqında söz" adlı ön sözü ilə nəşr olunan povestlər toplusudur. Burada təqdim olunan əksər nümunələr qazax nəsrinin xüsusiyyətlərini yaxşı bilən, yazıçı və mütərcim Nəriman Əbdülrəhmanlı tərəfindən tərcümə edilərək nəşrə təqdim edilmişdir. Qeyd edək ki, N.Əbdülrəhmanlı bu tərcümə nəşr olunmazdan əvvəl "Qazax nəsri antologiyası"nı hazırlayıb Azərbaycan oxucularına təqdim etmişdir. Burada digər müəlliflərin əsərləri ilə yanaşı, Kemel Tokayevin "Sirli iz" povestindən parçalar da yer almışdır. "Antologiya"ya Abay, Şəkərim Kudayberdiyevdən başlayaraq, Daniyar Suqramenov və Ayagül Mantay ilə bitən 56 qazax nasirinin nəsr nümunələri daxil edilmişdir. Kitabxanamızda hər iki əsər yer aldığından biz bu tərcümələrin əksəriyyəti ilə tanışıq. Hər iki kitabda tərcümə dilinin zənginliyi və parlaqlığı diqqəti cəlb edir ki, bu da, fikrimizcə, həm orijinal yazıçı, həm də istedadlı tərcüməçi N.Əbdülrəhmanlının tərcümənin əsas prinsiplərinə yaxşı bələd olması nəticəsində baş vermişdir. N.Əbdülrəhmanlının interpretasiyasında K.Tokayev nəsrinin Azərbaycan dilinə tərcümələrinin başlıca cəhəti mütərcimin yaradıcılığına qoyduğu mühüm tələblər tərcümə nümunələrinin xarakterik xüsusiyyətlərinin semantik tutumu və dil üzərində işləməsinə münbit şərait yaratmışdır. Axı ədəbi əsərin semantik tutumu ya real tipikləşdirmə (konkret ideal obraz ümumiləşmiş tipik məna kəsb etdikdə), ya da alleqoriya (ayrıca obraz şərti mücərrəd məna kəsb etdikdə) kimi təzahür etdikdə çoxşaxəliliyin daha mürəkkəb forması (əsərin mənası müxtəlif, çeşidli, ən azı bir-birini təkzib etməyən şərhlər ala bildikdə) – povestin çoxmənalı tutumu nəticəsində mənaların mürəkkəb birləşməsi, bəzən ilk baxışda uyğun gəlməyən, semantik yerdəyişmələr və s. orijinalın üslub vasitələri və onların funksional istiqamətinə və bütün dil sisteminə müsbət təsir edən məqam kimi əhəmiyyətlidir. Bu mühüm xüsusiyyət, adətən, orijinalın bütün üslub vasitələrinin və onların funksional oriyentasiyası nəticəsində yenidən yaradılır. Bu baxımdan N.Əbdülrəhmanlının tərcümələri bizə orijinal və

tərcümələrin konkret hissələrinə istinad etməklə mütərcimin bütün tərcümə materialına olan məsuliyyətli münasibəti ilə bağlı mövqeyimizi təsdiqləyir.

### Nəticə / *Conclusion*

Beləliklə, Azərbaycan ədəbiyyatına Kemel Tokayev kimi orijinal yaradıcılıq üslubuna malik daha bir qazax yazıçısı öz əsərləri ilə daxil olmaq imkanı əldə edə bildi. Ona görə də son vaxtlar Kemel Tokayevin əsərləri nəinki Azərbaycan oxucusu tərəfindən oxunur, həm də onun əsərləri tərəfimizdən Azərbaycan tənqidinin təhlil obyektinə çevrilir. Məsələn, bu yaxınlarda Azərbaycanın aparıcı "Ədəbiyyat qəzeti"ndə akademik Nizami Cəfərovun "Qazax yazıçısı Azərbaycan dilində" adlı geniş məqaləsi dərc olunmuşdur. Bu məqalədə Kemel Tokayevin yaradıcılıq xüsusiyyətləri yaxından öyrənilməklə yanaşı, həm də qazax detektiv janrının ayrı-ayrı məsələlərinin Azərbaycan detektivinin əsərləri ilə müqayisəli şəkildə araşdırılmışdır. Əmir Mustafayev, Cəmşid Əmirov, Çingiz Abdullayev və başqaları kimi detektiv janrında işləyən qələm sahiblərinin əsərləri də bu kontekstdə zaman keçdikcə komparativist müstəvidə araşdırma obyekti kimi çıxış edəcəyinə inanırıq. Kemel Tokayevin detektiv janrının qazax ədəbiyyatında təkrarsız bədii söz ustası olduğunu nəzərə alaraq ədəbiyyatşünaslığımızın bu sahəyə üz çevirməsi və əsaslı təhlillər aparılması bütün tərəfləri ilə aktuallaşdırır.

### Ədəbiyyat / *References*

1. Abdullayev, Ç. Müqəddəs borc // Kemel Tokayev. Gecə açılan atəş. Povestlər. – Bakı: Qanun, – 2022, – s.7 – 10.
2. https://ru.sputnik.kz
3. Смысловое и стилевое пространство прозы Кемеля Токаева. Союз писателей Белоруссии https://www.oo-spb.by>...
4. Токаев, К. Последний удар // Простор, – 1984, № 7, – с. 135 – 206.
5. Шакиев, М.Н. Наследие Кемеля Токаева и воспоминания современников // Известия Коми научного центра Уральского отделения Российской академии наук, № 1(53), 2022.

## Кемель Токаев как основатель детективного жанра в казахской литературе

**Низами Маммадов Тагисой**
Доктор филологических наук, профессор
Институт литературы имени Низами Гянджеви НАНА
E-mail: nizami.mamedov@mail.ru

**Резюме**. В этой статье анализируется творческая деятельность основоположника детективного жанра в казахской литературе талантливого писателя Кемеля Токаева, видевшего в детстве все невзгоды жизни, рано потеряв родителей и старшего брата в Великой Отечественной войне, а также о его самом участвовавшего и раненного на этой войне. К.Токаев, окончив Казахский государственный университет, работал журналистом и редактором. Именно в этот период он, обратившись к жанру прозы, в последующие годы, одно за другим создавал такие оригинальные призведения, как «Зездный путь», «Таинственный след», «Золото с тамгой», «Последний путь», «Солдат ушёл на войну»,

«Птица без гнезда», «Покушение», «Ночной выстрел» и мн. др. Заметим, что, благодаря творческим переводам Наримана Абдулрахманлы, некоторые из повестей Кемеля Токаева стали достижением азербайджанской читательской общественности.
В данной статье изучатется некоторые проблемы писательской деятельности Кемеля Токаева, который в интересных произведениях по-своему реконструктуировал отдельные моменты сочинений, придав им своеобразную форму и трактовку. Помимо отмеченного, при анализе произведений Токаева обращаено внимание и на сюжетно-композиционное построение, портретную характеристику и стилевую доминанту художественных текстов писателя. В азербайджанском литературоведении впервые делается попытка скрупулёзного анализа детективных художественных текстов казахского писателя.
**Ключевые слова**: Кемель Токаев, творческая деятельность, жанр детектива, стилевая доминанта, портретная характеристика, автобиографизм